Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# 2025-ci ilin II rübü üzrə ELEKTRON BÜLLETEN

# Mündəricat


| | |
|---|---|
| 3-5 | Xarici kvalifikasiyaların tanınması |
| 6-7 | Qeyri-formal və informal təhsilin tanınması |
| 8 | Ali təhsil müəssisələri üçün "Keyfiyyətə Doğru Addım: Akkreditasiya Prosesinə Hazırlıq" seminarı |
| 9-10 | Beynəlxalq təcrübənin öyrənilməsi: TKTA əməkdaşları SEQA-ESG2 layihəsinin təlimində |
| 11 | Belqradda 28 may – Müstəqillik Günü münasibətilə rəsmi qəbul |
| 12 | CEENQA Baş Assambleyasında iştirak |
| 13-15 | TKTA-nın İdarə Heyətinin sədrinin keçirdiyi görüşlər |
| 16-19 | Media ilə iş və vətəndaş məmnunluğu |
| 20-23 | İnstitusional və proqram akkreditasiya qiymətləndirilməsi ilə əlaqədar ekspert müşahidələri |

## Xarici kvalifikasiyaların tanınması

“Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları”nın 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquqşünaslıq ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) sifarişi ilə Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahanda müvəffəqiyyət qazanması (keçid balını toplaması) tələb olunur.

23 iyun 2025-ci il tarixində DİM tərəfindən keçirilən sınaq imtahanında iştirak etmək üçün qeydiyyatdan keçən 295 nəfər namizəddən 240-ı imtahanda iştirak edib, onlardan 61-i müvəffəqiyyət qazanıb. Sınaq imtahanında iştirak edən və keçid balını toplayan namizədlərin ixtisaslar üzrə statistik məlumatını keçid vasitəsilə əldə edə bilərsiniz.

**240 nəfər** → **25 ixtisas üzrə 61 nəfər müvəffəqiyyət qazanıb**

**Peşə imtahanında iştirak edən və keçid balını toplaya bilməyən namizədlərin ixtisaslar və təhsil aldığı ölkələr üzrə TKTA tərəfindən təhlil aparılmışdır. Bu təhlillərin nəticələri aşağıdakı qrafiklərdə təqdim olunur.**

| İmtahanda uğursuz nəticə göstərən namizəd sayı | Hüquqşünaslıq | İbtidai sinif müəllimliyi | Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi | Yanğın təhlükəsizliyi mühəndisliyi |
|---|---|---|---|---|
| 179 | 115 | 10 | 23 | 31 |

**İxtisas üzrə namizəd sayı**




**Uğurlu və uğursuz göstərici üzrə ümumi nəticə**



## Xarici kvalifikasiyaların tanınması

### Peşə imtahanında 4 ixtisas üzrə iştirak etmiş namizədlərin uğurlu və uğursuz nəticələrinin göstəriciləri (%-lə)




### Peşə imtahanında 4 ixtisas üzrə iştirak etmiş namizədlərin uğurlu və uğursuz nəticələrinin göstəriciləri (sayla)




### Peşə imtahanında 4 ixtisas üzrə iştirak etmiş namizədlərin təhsil aldığı ölkələr üzrə göstəricilər







### 5 ən çox müraciət edilən ölkə üzrə uğurlu və uğursuz göstəricilər



## Xarici kvalifikasiyaların tanınması

**Peşə imtahanında 4 ixtisas üzrə iştirak etmiş və uğursuz nəticə əldə edən namizədlərin Ukraynada təhsil aldıqları ATM-lər üzrə göstəriciləri**




**Peşə imtahanında 4 ixtisas üzrə iştirak etmiş və uğursuz nəticə əldə edən namizədlərin Rusiya Federasiyasında təhsil aldıqları ATM-lər üzrə göstəricilər**




**Bununla yanaşı, xaricdəki ali təhsil müəssisələrinə qəbul prosesinin davam etdiyini nəzərə alaraq, TKTA xaricdə təhsil almaq istəyən vətəndaşlara təhsillərini tamamladıqdan sonra əldə olunan kvalifikasiyanın tanınmasında hər hansı bir çətinliklə qarşılaşmamaları üçün aşağıdakı məqamlara diqqət yetirmələrini tövsiyə edir:**

1. Seçilən ixtisasların Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli, 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli, 503 nömrəli Qərarı ilə "Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı", "Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə ixtisasların Təsnifatı" və "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nda yer alması;
2. Kvalifikasiyanın aid olduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması (enic-naric.net keçidindən istifadə etməklə müvafiq məlumatı əldə etmək mümkündür);
3. Nəzərdə tutulmuş təhsilin normativ müddətinin azı yarısı qədər təhsil alınan ölkənin ərazisində olmaq və tədris müddətinin azı üçdə ikisində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması (tibb və səhiyyə ixtisaslarına münasibətdə təhsilin bütün normativ müddətində təhsil alınan ölkənin ərazisində olmaq);
4. Müvafiq Qaydalara əsasən, ölkə ərazisində yalnız ənənəvi təlim metodlarına əsaslanan formal qaydada əyani və qiyabi təhsilalma formasında (qiyabi "Baytarlıq təbabəti" və "Əczaçılıq" ixtisasları istisna olmaqla) əldə olunmuş kvalifikasiyalara münasibətdə tanınmanın həyata keçirildiyinin nəzərə alınması;
5. Tədris müddətində seçilən dərslərin ixtisasla uyğunluq təşkil etməsi və minimum kredit həcminin qarşılanması;
6. "Açık öğretim" təhsilalma formasında əldə olunmuş kvalifikasiyaların ölkə ərazisində tanınmaması.

TKTA peşə təhsili üzrə qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması prosesini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"na əsasən həyata keçirir.

## ➢ Peşə İmtahanları və Tanınma

2025-ci ilin II rübü qeyri-formal və informal yollarla əldə edilmiş bilik, bacarıq və səriştələrin tanınması prosesinin coğrafi əhatəsinin genişləndirilməsi baxımından əlamətdar olub. Belə ki, cari rübdən etibarən QFİTT üzrə qiymətləndirilmə və tanınması Gəncə şəhəri ilə yanaşı, ilk dəfə olaraq Gədəbəy və Goranboy rayonlarını da əhatə edib. Bu coğrafi genişlənmə regionlarda yaşayan formal təhsilə malik olmayan, lakin müvafiq peşə ixtisası üzrə səriştə və təcrübəyə sahib şəxslər üçün tanınma prosesinə birbaşa və yerində çıxış imkanı yaradıb.

Cari rübdə ümumilikdə, "Zərgər", "Avtomobil mühərriklərinin yığıcısı", "Elektrik-qaz qaynaqçısı", "Təmirçi-çilingər", "Bərbər", "Kompüter operatoru", "Aşpaz" və "Qənnadçı, şirniyyatçı" peşə ixtisasları üzrə 116 nəfər vətəndaş nəzəri imtahanda iştirak hüququ əldə edib. İştirakçılardan 95 nəfər "məqbul", 21 nəfər isə "qeyri-məqbul" nəticə göstərib. Növbəti mərhələdə praktiki imtahanda iştirak edən 95 nəfər namizəddən 1 nəfər "qeyri-məqbul", 94 nəfər isə "məqbul" nəticə göstərərək peşə ixtisasını təsdiq edən müvafiq sənəd əldə edib.

Bununla yanaşı, cari ilin II rübü ərzində "Təmirçi-çilingər" ixtisası tanınma prosesinə yeni peşə istiqaməti kimi əlavə olunmuş və bu sahə üzrə müraciət etmiş şəxslərin bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi həyata keçirilib. Nəticə etibarilə, qeyri-formal və informal təhsilin tanınması üzrə həyata keçirilən ixtisasların ümumi sayı 27-yə çatdırılıb.

## ➢ Əməkdaşlıq və layihələr

### "Sənətin varsa, sənədin olacaq!" layihəsi ("BP Azərbaycan" və TKTA)

"BP Azərbaycan" şirkətinin maliyyə dəstəyi ilə icra olunan "Sənətin varsa, sənədin olacaq!" layihəsi çərçivəsində 2025-ci ilin II rübündə regionlarda yaşayan vətəndaşların peşə bacarıqlarının tanınması istiqamətində fəaliyyət davam etdirilib. Goranboy rayonunda "Bərbər", "Kompüter operatoru", "Avtomobil mühərriklərinin yığıcısı" və "Qənnadçı, şirniyyatçı", Gəncə şəhərində Samux, Daşkəsən və Göygöl rayonlarından olan müraciətçilərin "Qənnadçı, şirniyyatçı" peşə ixtisasları üzrə, həmçinin Toyota Gəncə Mərkəzinin əməkdaşlarının "Mühafizəçi" və "Avtomobil mühərriklərinin yığıcısı", Toyota Abşeron Mərkəzinin əməkdaşlarının isə "Avtomobil mühərriklərinin yığıcısı" ixtisası üzrə bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi və tanınması həyata keçirilib.

Tanınma prosesinin regionlarda təşkili, yerli əhalinin yaşadıqları ərazidən kənara çıxmadan, yerində qiymətləndirilməyə qoşulmasına şərait yaratmaqla onların vaxt və resurs baxımından yükünü azaldıb, peşəkar inkişaf imkanlarını daha əlçatan edib. Regionlarda bu cür təşəbbüslərin həyata keçirilməsi yalnız iştirakçıların şəxsi karyera inkişafını deyil, eləcə də əmək bazarının ixtisaslı işçi qüvvəsi ilə təmin olunması baxımından əhəmiyyətlidir.










## Qeyri-formal və informal təhsilin tanınması

### “Azerbaijan International Mining Company” MMC ilə əməkdaşlıq

“Azerbaijan International Mining Company” MMC ilə tərəfdaşlıq çərçivəsində Gədəbəy rayonunda şirkətin 16 nəfər əməkdaşının “Elektrik-qaz qaynaqçısı” və “Təmirçi-çilingər” peşə ixtisasları üzrə bilik, bacarıq, təcrübə və səriştələrinin qiymətləndirilməsi prosesi uğurla həyata keçirilib və əməkdaşlara peşə ixtisasını təsdiq edən müvafiq sənəd təqdim edilib.







Nəticə olaraq, əməkdaşların illərlə formalaşdırdıqları peşə bacarıqları onların karyera inkişafına öz töhfəsini vermiş olacaq. Qeyd etmək lazımdır ki, “Azerbaijan International Mining Company” MMC sənaye sahəsində fəaliyyət göstərən ilk şirkət olaraq əməkdaşlarının peşə bacarıqlarının təsdiqini təşviq edir və bu təşəbbüsü daha da genişləndirməyi qarşısına məqsəd qoyub.

### ➢ Qiymətləndirmə prosesi ilə bağlı təəssüratlar



### Qeyri-formal və informal təhsilin tanınması şöbəsinin aparıcı məsləhətçisi Şəbnəm Camalzadənin və imtahanlarda iştirak edən vətəndaşların təəssüratları:

- TKTA-nın təşəbbüsü ilə qeyri-formal və informal təhsilin tanınması məqsədilə Bakı şəhərində və regionlarda keçirilən müvafiq peşə ixtisasının tanınması imtahanları bir çox vətəndaşın həyatında yeni uğurların başlanğıcı olub. Təqdirəlayiq haldır ki, TKTA tərəfindən həyata keçirilən qiymətləndirmə prosesində yüksək nəticə göstərərək müvafiq peşə sənədi əldə etmiş şəxslər əmək bazarına ixtisaslı kadr kimi daxil olmaq hüququ əldə edib və özünüməşğulluq imkanlarını genişləndirib. “Dərzi” peşə ixtisası üzrə qiymətləndirmə prosesində uğurlu nəticə göstərərək sənəd əldə etmiş və bu sahədə şəxsi biznesini qurmağa nail olmuş Nübarək Hüseynovanın nümunəsi qeyri-formal və informal təhsilin tanınmasının miqyasının genişlənməsinin sahibkarlığın inkişafına müsbət təsirini ifadə edir.






- Gədəbəy rayonunda təşkil olunan “Təmirçi-çilingər” peşə ixtisası üzrə bilik, bacarıq, səriştə və təcrübələrin qiymətləndirilməsi prosesindən uğurla keçərək peşə ixtisasını təsdiq edən müvafiq sənəd əldə etmiş Elvin Əsgərovun qiymətləndirməyə dair təəssüratlarını QR kod vasitəsilə izləyə bilərsiniz.

- Goranboy rayonunda təşkil olunan “Kompüter operatoru” peşə ixtisası üzrə bilik, bacarıq, səriştə və təcrübələrin qiymətləndirilməsi prosesindən uğurla keçərək peşə ixtisasını təsdiq edən müvafiq sənəd əldə etmiş Mehmanə İsmayılovanın qiymətləndirməyə dair təəssüratlarını QR kod vasitəsilə izələyə bilərsiniz.

## Ali təhsil müəssisələri üçün “Keyfiyyətə Doğru Addım: Akkreditasiya Prosesinə Hazırlıq” seminarı




**2025-ci il 23–24 iyun tarixlərində TKTA tərəfindən Bakı Dövlət Universitetinin ev sahibliyi ilə ali təhsil müəssisələrinin (ATM) akkreditasiya prosesinə hazırlıq səviyyəsinin artırılması və metodoloji dəstəyin göstərilməsi məqsədilə “Keyfiyyətə Doğru Addım: Akkreditasiya Prosesinə Hazırlıq” adlı seminar təşkil olunub. Seminarda 40 ATM-dən ümumilikdə 84 nümayəndə iştirak edib.**




Seminar sessiyaları çərçivəsində TKTA əməkdaşları tərəfindən akkreditasiya mərhələləri, qiymətləndirmə meyarları, sorğuların əhəmiyyəti və Özünütəhlil Hesabatlarının indikatorlara əsaslanan təhlili üzrə təqdimatlar keçirilib. Tədbir iştirakçılarına praktiki nümunələr üzərindən izahatlar verilib, onların konkret sualları cavablandırılıb və metodoloji dəstək göstərilib.

Tədbirin ilk günündə keçirilmiş panel müzakirəsində ekspertlər və ATM nümayəndələri arasında akkreditasiya prosesində rast gələnən əsas çətinliklər, institusional və proqram qiymətləndirməsi arasında fərqlər, Özünütəhlil Hesabatlarının tərtibində tez-tez qarşılanan çağırışlar və akkreditasiyanın inkişafyönümlü qiymətləndirmə kimi tətbiqi ilə bağlı fərqli yanaşmalar vurğulanıb. Eyni zamanda, iştirakçılar güclü və zəif tərəflərin müəyyən olunması, təkmilləşdirmə ehtiyacları və alternativ həll yolları üzərində dayanaraq təcrübələrini bölüşüblər.










## Beynəlxalq təcrübənin öyrənilməsi: TKTA əməkdaşları SEQA-ESG2 layihəsinin təlimində

2025-ci ilin 27-28 may tarixlərində TKTA-nın Akkreditasiya və lisenziya şöbəsinin aparıcı məsləhətçisi Xanım Quliyeva, Təlim və metodologiya şöbəsinin böyük məsləhətçisi Bəyim Abdulla və Analitik təhlil şöbəsinin böyük məsləhətçisi Gülnar Tahirli Serbiyada keçirilən təlim və təcrübə mübadiləsində iştirak ediblər. SEQA-ESG 2 layihəsi Azərbaycan, Bosniya və Herseqovina, Ukrayna və Serbiyanın keyfiyyət təmnatı agentliklərinin Ali Təhsilin Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının (ENQA) müşahidəçi üzv statusundan tamhüquqlu üzv olmaq istqamətində apardıqları fəaliyyətlərə dəstək məqsədilə həyata keçirilir. Təlim zamanı Ali Təhsil üzrə Avropa Standartları və bələdçi sənədin (ESG) 3.6 (“Daxili keyfiyyət təminatı və peşəkar davranış”), ESG 3.4 (“Tematik təhlil”) və ESG 2.1 (“Daxili keyfiyyət təminatının nəzərə alınması”) standartları üzrə təcrübələr müzakirə edilib.

Tədbir çərçivəsində TKTA əməkdaşları Ukrayna, Bosniya və Hersoqovina, Serbiya və Latviyanın keyfiyyət təminatı sistemləri ilə tanış olub, qarşılıqlı təcrübə mübadiləsi apararaq, beynəlxalq əməkdaşlıq imkanlarını dəyərləndiriblər.

### Təlimlə bağlı əməkdaşların təəssüratları:

Tematik təhlil Agentliyin fəaliyyətində yalnız analitik vasitə kimi deyil, həm də ENQA-ya tamhüquqlu üzvlük yolunda strateji əhəmiyyət daşıyan əsas mexanizmlərdən biri kimi çıxış edir. ESG-2015 sənədinin müxtəlif bəndlərinə əsaslanan tematik təhlillər TKTA-nın şəffaflıq, iştirakçılıq və davamlı inkişaf prinsiplərinə sadiqliyinin konkret göstəricisidir. Bu baxımdan, tematik təhlil təkcə daxili inkişaf məqsədi daşımır, həm də Agentliyin beynəlxalq aləmdə tanınması və Avropa ali təhsil məkanında daha güclü mövqe qazanması üçün mühüm rol oynayır. Serbiyada keçirilən beynəlxalq təlim bu sahədə müxtəlif ölkələrin təcrübələrinin paylaşılması baxımından olduqca faydalı platforma oldu. Tədbirdə iştirak edən ekspertlər tematik təhlilin ESG-2015 standartları çərçivəsində tətbiqini, onun hesabatlılıq, şəffaflıq və siyasətə təsir imkanlarını vurğuladılar. Tədbirdə təqdim olunan real nümunələr və praktiki yanaşmalar bu istiqamətdə təhlil metodologiyamıza yeni baxış bucağı gətirməklə yanaşı, tematik təhlil üzrə gördüyümüz işlərlə bağlı yeni baxış yaratdı.

**Gülnar Tahirli,**
**Analitik təhlil şöbəsinin böyük məsləhətçisi**

İştirak etdiyim bu seminar həm peşəkar inkişaf, həm də nəzəri biliklərin təkmilləşdirilməsi baxımından olduqca faydalı və düşündürücü oldu.
Seminar boyu strukturlaşdırılmış məlumatların praktik müzakirələrlə birləşməsi, xüsusilə də “World Café” formatında təşkil olunmuş interaktiv sessiya, müxtəlif ölkələrdən olan iştirakçılarla fikir və təcrübə mübadiləsi aparmağa şərait yaratdı. Bu müzakirələr zamanı agentliklərin qarşılaşdığı çətinliklər və onların həlli yolları üzrə təqdimatlar ətrafında aparılan dialoqlar olduqca maraqlı idi.
Daxili və xarici keyfiyyət təminatı sistemləri, etik davranış, hesabatlılıq və tematik analiz sahəsində müzakirələr göstərdi ki, keyfiyyət təminatı sadəcə nəzarət və qiymətləndirmə deyil, həm də inkişaf, dəyişiklik və öyrənmə üçün mühüm vasitədir.
Seminardan yeni ideyalar, uğurlu təcrübələr və ali təhsildə keyfiyyətin yüksəldilməsinə töhfə verə biləcək yanaşmalarla ayrıldım. Bu cür təcrübələrin həm şəxsi inkişaf, həm də ümumi keyfiyyət mədəniyyətinin formalaşması baxımından böyük əhəmiyyət daşıdığına inanıram.

**Bəyim Abdulla,**
**Təlim və metodologiya şöbəsinin böyük məsləhətçisi**

## Beynəlxalq təcrübənin öyrənilməsi: TKTA əməkdaşları SEQA-ESG2 layihəsinin təlimində

TKTA nümayəndəsi olaraq təşkil edilmiş seminarda iştirak etmək həm peşəkar inkişaf baxımından, həm də Agentliyin fəaliyyət istiqaməti üzrə beynəlxalq təcrübənin mənimsənilməsi və tətbiqi yolu ilə daxili keyfiyyət təminatı sisteminin daha da təkmilləşdirilməsi baxımından faydalı idi. Tədbirdə ESG 2015 sənədinin qeyd edilən standartları üzrə təcrübələr paylaşılaraq, bu sahədə artıq ENQA-ya tamhüquqlu üzv olmuş agentliklərin uğurlu fəaliyyətləri təqdim edildi. Təqdimatlardan sonra mövzular ətrafında müzakirələr aparıldı, interaktiv sessiyalarda isə praktiki tapşırıqlar üzərində fikir mübadiləsi oldu. Həmkarlarımla birgə TKTA-nı təmsil edərək Agentliyin tematik təhlil və daxili keyfiyyət təminatı sahəsində qarşılaşdığı çətinlikləri bölüşdük. Bu müzakirələr analitik təhlilin agentliyin ümumi keyfiyyət təminatında və strateji qərarların qəbulunda əhəmiyyətini daha dərindən dərk etməyə imkan verdi. Eyni zamanda, daxili keyfiyyət təminatı sahəsində Agentliyin fəaliyyəti ilə bağlı sənədləşmə prosesinin əhəmiyyətinə diqqət çəkildi, həmçinin agentliklərin xarici keyfiyyət təminatı proseslərində tətbiq etdiyi yanaşmaların dayanıqlılığı və qiymətləndirmə praktikasında ESG tələblərinə əsaslanan obyektivliyin artırılması yollarının daha aydın müəyyənləşdirilməsi üçün münbit müzakirə mühiti formalaşdı. Bu tədbirdə əsas məqsəd ondan ibarət idi ki, agentliklər ENQA standartlarına uyğun davamlı təkmilləşmə mədəniyyətinin formalaşdırılmasını layihə çərçivəsində əldə etdikləri təcrübənin tədbiqi vasitəsilə təmin etsin. Qeyd etmək istərdim ki, seminar həm də beynəlxalq təcrübə mübadiləsi və əməkdaşlığın inkişafı baxımından dəyərli oldu.

Belə məhsuldar tədbirlər TKTA-nın “öyrənən agentlik” modeli çərçivəsində institusional inkişafına və beynəlxalq standartlara uyğunlaşmasına töhfə verir.

**Xanım Quliyeva,**
**Akkreditasiya və lisenziya şöbəsinin aparıcı məsləhətçisi**





## Belqradda 28 may – Müstəqillik Günü münasibətilə rəsmi qəbul

**28 may - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Serbiya Respublikasındakı Səfirliyi tərəfindən Belqrad şəhərində təntənəli rəsmi qəbul təşkil edilib. Tədbirdə Serbiya Respublikasının yüksək səviyyəli dövlət rəsmiləri, diplomatik nümayəndəliklər, ictimai xadim, həmçinin Serbiyada yaşayan azərbaycanlılar iştirak ediblər. TKTA əməkdaşları da dəvətli qonaq qismində qəbuldaiştirak ediblər və tədbirlə bağlı təəssüratlarını bölüşüblər.**



TKTA-nın əməkdaşları olaraq bu mötəbər tədbirdə iştirak bizə ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu hiss etmək fürsəti verdi. Tədbir zamanı Azərbaycanın dövlətçilik tarixinə həsr olunmuş, istiqlal yolumuzu əks etdirən Azərbaycan Xalq Cümhuriyyətindən başlayaraq, müstəqilliyimizin bərpası, 44 günlük Vətən müharibəsi və şəhidlərimizin əziz xatirəsinə həsr edilmiş video çarxlar nümayiş etdirildi. Bu anlar tədbir iştirakçıları üçün dərin emosional təsir yaratdı və bir daha sübut etdi ki, müstəqilliyimiz qəhrəmanlıqla qazanılıb. Tədbirin yüksək səviyyədə təşkili, səsləndirilən nitqlər və musiqi proqramı bir daha göstərdi ki, ölkəmizin hüdudlarından kənarda da milli tariximizə, müstəqillik ideyalarımıza və mədəniyyətimizə dərin ehtiram mövcuddur. Azərbaycan bayrağının Belqradın mərkəzində, Slaviya meydanındakı fəvvarədə işıqlandırılması və Serbiya Xarici İşlər Nazirliyinin rəsmi təbriki bu ehtiramın bariz nümunəsi idi.

Belə tədbirlər bizi yalnız milli kimliyimizlə deyil, həm də qlobal dünyada fəal iştirak edən, sülhə, tərəqqiyə və həmrəyliyə töhfə verən müasir Azərbaycanla bir daha qürurlandırır.

**Gülnar Tahirli, Bəyim Abdulla, Xanım Quliyeva**
**TKTA əməkdaşları**

## CEENQA Baş Assambleyasında iştirak

2025-ci ilin 13-14 iyun tarixlərində Estoniya Respublikasının Tallin şəhərində Estoniyanın Təhsil üzrə Keyfiyyət Agentliyinin (HAKA) ev sahibliyi etdiyi Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) Baş Assambleyası keçirilib. TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev tədbirdə iştirak etmək məqsədilə qeyd edilən tarixlərdə Tallin şəhərinə səfər edib.

Azərbaycan da daxil olmaqla 27 ölkədən 46 təsisatın qoşulduğu təşkilat Mərkəzi və Şərqi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standart və təlimatlara uyğun daxili və xarici keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsinə töhfə verməklə yanaşı, üzv təşkilatlar arasında təcrübə mübadiləsi və müştərək layihələrin həyata keçirilməsini təşviq edir. Tədbirdə CEENQA üzvü olan ölkələrin keyfiyyət təminatı agentliklərinin, eləcə də Ali Təhsil üzrə Avropa Keyfiyyət Təminatı Reyestri (EQAR), Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Beynəlxalq Şəbəkəsinin (INQAAHE), Avropa Tələbələr Birliyinin (ESU) nümayəndələri də iştirak ediblər.




Tədbirdə tədris proqramlarında keyfiyyət təminatı standartlarının təmin olunması, akademik proqramların əmək bazarının tələblərinə uyğunlaşdırılmasında ATM-in təşviq edilməsi, keyfiyyət təminatı mexanizmlərinin məzunların məşğulluğunun artırılmasına töhfəsi, kurikulumların təkmilləşdirilməsində əmək bazarı nümayəndələrinin rolu kimi mühüm mövzular müzakirə edilib.



Heyətin mübadiləsi proqramı çərçivəsində TKTA əməkdaşları 2024-cü ildə CEENQA-da təmsil olunan Rumıniya, Slovakiya, Sloveniya və Latviya Keyfiyyət təminatı agentlikərində təcrübə keçib və işçi əlaqələr yaradıblar. Bu təsisatların əhəmiyyətli hissəsi ENQA dəyərləndirilməsindən yeni keçdiyi üçün bu təcrübənin öyrənilməsi və işgüzar əlaqələrin saxlanılması baxımından digər CEENQA üzvü olan ölkələrlə də əməkdaşlıq kontekstində faydalı müzakirələr aparılıb və əməkdaşlıqların davam etdirilməsi razılaşdırılıb.

Məlumat üçün qeyd edək ki, 2024-cü ilin may ayında CEENQA Baş Assambleyası Bakı şəhərində məhz TKTA-nın ev sahibliyi ilə keçirilib.

## ADPU-nun Şamaxı filialında görüş

12 aprel 2025-ci il tarixində TKTA İdarə Heyətinin sədri Tural Əhmədov, struktur bölmə rəhbərləri və əməkdaşları Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialında bir sıra görüşlər keçirib. Tədbirdə ADPU-nun Şamaxı filialının direktoru Tünzalə Yusifova, fakültə dekanları, akademik və inzibati heyət, regionda təmsil olunan maraqlı tərəflər, həmçinin keyfiyyət elçiləri – tələbələr iştirak ediblər. Görüşün əsas məqsədi sözügedən ATM-in tələbəyönümlü tədrisin təşkili ilə əlaqədar cari vəziyyəti və proqram üzrə təkrar akkreditasiyaya hazırlıqla tanışlıqdan ibarət olub.

Tədbirdə çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov belə görüşlərin qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi baxımından əhəmiyyət kəsb etdiyini, həmçinin ATM-lərdə, o cümlədən region filiallarında keyfiyyət təminatının yüksəldilməsi məqsədilə bu kimi tədbirlərin davamlı olmasının önəmini vurğulayıb.

Görüş zamanı tələbəyönümlü yanaşmanın əhəmiyyəti, bu prinsipin tədris prosesində tətbiqi, tələbələrin keyfiyyət təminatı təşəbbüslərində, eləcə də qərarvermə proseslərində iştirakının əhəmiyyəti haqqında fikir mübadiləsi aparılıb.






## TKTA rəhbərliyinin iştirakı ilə region universitetlərində bir sıra görüşlər

25 aprel 2025-ci il tarixində TKTA İdarə Heyətinin sədri Tural Əhmədovun rəhbərliyi ilə Agentliyin müvafiq struktur bölmə rəhbərləri və əməkdaşları Lənkəran Dövlət Universitetində (LDU) və ADPU-nun Cəlilabad filialında bir sıra görüşlər keçiriblər. Görüşlərdə LDU-nun rektoru, professor Natiq İbrahimov, ADPU-nun Cəlilabad filialının direktoru, dosent Xudayar Sultanlı, fakültə dekanları, professor-müəllim və inzibati heyət, həmçinin Tələbə Elmi Cəmiyyətinin nümayəndələri iştirak edib.
Çıxışlarında universitetlərlə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətinə toxunan Tural Əhmədov region ATM-lərində keyfiyyət təminatının inkişafı və tələbəmərkəzli yanaşmanın təşviqi baxımından bu kimi müzakirələrin davamlı olmasının vacibliyini qeyd edib.












## TKTA-nın İdarə Heyətinin sədrinin keçirdiyi görüşlər

### "Məktəbəqədər təhsil" proqramı üzrə Akkreditasiya Komissiyaları ilə görüş






2025-ci ilin aprel-iyun aylarında həyata keçirilən "Məktəbəqədər təhsil" proqramı üzrə akkreditasiya qiymətləndirilməsində iştirak edən Akkreditasiya Komissiyaları ilə görüş təşkil olunub. Görüş zamanı TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov çıxış edərək, akkreditasiya prosesinin əsas mahiyyəti, ekspertlərin vəzifə və məsuliyyətləri barədə Komissiya üzvlərinə tövsiyələr verib. O, həmçinin akkreditasiya fəaliyyətlərinin obyektivlik və ədalətlilik prinsipləri əsasında aparılmasının əhəmiyyətini vurğulayıb.

### TKTA ilə Marsol Group və tərəfdaşı arasında görüş

23 may 2025-ci il tarixində TKTA ilə “Marsol Group” və Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası (ASTA) arasında görüş keçirilib. Görüşdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, “Marsol Group”-un təsisçisi Tural Mustafayev, ASTA-nın İdarə Heyətinin sədri Orxan Xəlilzadə, Agentliyin müvafiq struktur bölmə rəhbərləri və əməkdaşları iştirak edib.

Tural Əhmədov ilk öncə Agentliyin fəaliyyət istiqamətləri haqqında qonaqları məlumatlandırıb. O, həmçinin qeyri-formal və informal təhsilin tanınmasının vətəndaşların əmək bazarına çıxışı üçün xüsusi əhəmiyyətindən danışaraq, onların bu prosesə cəlb edilməsinin vacibliyini qeyd edib. İdarə Heyətinin sədri peşə tanınması istiqamətində TKTA-nın təqdim etdiyi sənədlərin vətəndaşların məşğulluq imkanlarının genişlənməsinə müsbət təsirini qeyd edib.



## Media ilə iş və vətəndaş məmnunluğu

### Media ilə iş:

TKTA-nın fəaliyyət istiqamətinə uyğun olaraq, media resursları ilə əməkdaşlıq çərçivəsində cari ilin II rübündə bir sıra kütləvi informasiya vasitələrində maarifləndirici müsahibə və video-sujetlər yayımlanıb. Eyni zamanda, Agentliyin elektron poçt ünvanına media qurumlarından daxil olan müraciətlər müvafiq olaraq cavablandırılıb.

10 aprel 2025-ci ildə ARB24 telekanalında cari ilin mart ayı üzrə tanınma ilə bağlı icra olunmuş müraciətlərə dair TKTA-nın İnformasiya və insan resurslari şöbəsinin müdiri Rövşən Nəzərov müsahibə verib.
https://www.youtube.com/watch?v=gilcidafgFg&t=76s




17 iyun 2025-ci ildə ARB24 telekanalında cari ilin may ayı üzrə tanınma ilə bağlı icra olunmuş müraciətlərə dair TKTA-nın İnformasiya və insan resurslari şöbəsinin müdiri Rövşən Nəzərovun müsahibəsi yayımlanıb.
https://www.youtube.com/watch?v=U9jrDq2weTw




15 iyun 2025-ci ildə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovun İTV-nin "Yaxşısı budur" verlişində müsahibəsi yayımlanıb.
https://www.facebook.com/tkta.edu.az/videos/734189935773081





19 aprel 2025-ci ildə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov Real FM 107-yə xarici kvalifikasiyaların tanınması ilə bağlı müsahibə verib.
www.bit.ly/46PeDPH

1 iyun və 20 iyun 2025-ci ildə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov ARB telekanalında yayımlanan "Qanun Qayda" verilişində qonaq qismində iştirak edib.




www.youtube.com/watch?v=JRC3uP7OZ8U&t=8s



www.youtube.com/watch?v=kXwXw1jptHA

## Media ilə iş və vətəndaş məmnunluğu

## Media ilə iş:



3 aprel 2025-ci ildə TKTA-nın xaricdə təhsil almaq istəyən vətəndaşlara tövsiyələrinə dair Xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov ARB xəbərə müsahibə verib.
https://www.youtube.com/watch?v=y6AciYY3qrY&t=2s

7 aprel 2025-ci ildə İctimai televiziyanın "Xəbərimiz var" verilişində xaricdə ali təhsil ilə bağlı Xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov sualları cavablandırıb.
https://www.youtube.com/watch?v=NdtyU7ANA3w

9 aprel 2025-ci ildə AzTV telekanalında TKTA-nın xaricdə təhsil almaq istəyən şəxslərə tövsiyələri ilə bağlı video-süjet efirə gedib. Xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov vətəndaşları düşündürən sualları cavablandırıb.
https://www.youtube.com/watch?v=NBuRtazNK2I

10 aprel 2025-ci ildə İctimai televiziyada TKTA-nın sifarişi ilə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş peşə imtahanları ilə bağlı Xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov müsahibə verib.
https://www.facebook.com/watch/?v=695650202898610

12 aprel 2025-ci ildə qismən akademik tanınma şəhadətnaməsini əldə etmək istəyən vətəndaşların suallarını ARB24 televiziyasının "İş vaxtı" verlişində Xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov cavablandırıb.
https://www.youtube.com/watch?v=0E4T2nIWYJU&t=1s

13 iyun 2025-ci ildə TKTA-nın Xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov AZƏRTAC-a müsahibə verib
https://www.facebook.com/tkta.edu.az/videos/1170600094835104

10 aprel 2025-ci ildə TKTA-nın Qeyri-formal və informal təhsilin tanınması şöbəsinin müdiri Mansur Rəhimli İqtisadi Araşdırmalar və Təlim Mərkəzinin "Müasir bələdçi" verilişinin qonağı olub.
https://www.youtube.com/watch?v=blywNnjjtAY&t=1s





16 aprel 2025-ci ildə TKTA tərəfindən qeyri-formal və informal təhsilin tanınması üzrə qeydiyyat prosesinin asanlaşdırılması məqsədilə video təlimat hazırlanıb. Video təlimatın hazırlanmasında məqsəd vətəndaşlar tərəfindən müvafiq sənədlərin yüklənməsi zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılmasıdır.
https://www.facebook.com/tkta.edu.az/videos/1661086941444193



29 aprel 2025-ci ildə Xəzər televiziyasında xaricdə təhsil və kvalifikasiyaların tanınması ilə bağlı video-süjet efirə getmişdir.
https://www.youtube.com/watch?v=5JuD8w1jDHY

## Media ilə iş və vətəndaş məmnunluğu

### Vətəndaş qəbulu:

2025-ci ilin II rübü ərzində vətəndaş müraciətlərinin cavablandırılması məqsədilə aylıq əsasda sosial şəbəkə hesablarında əvvəlcədən elan edilməklə, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən vətəndaşların qəbulu təşkil edilib.
Qəbul zamanı vətəndaşlar əsasən, xarici dövlətlərin ATM-lərindən əldə etdikləri kvalifikasiyaların tanınması ilə bağlı müraciət ediblər.
İdarə Heyətinin sədri, sədrin müavini və müvafiq struktur bölmə rəhbərləri qəbula yazılmış vətəndaşları dinləyib, onların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar veriblər.
Qeyd edək ki, aprel-iyun ayları üzrə qəbul cədvəlinə uyğun olaraq, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən ümumilikdə **125** vətəndaşın qəbulu həyata keçirilib.
Bundan əlavə, aprel ayı **202,** may ayı **200**, iyun ayı **165** olmaqla, ümumilikdə vətəndaş, qurum və təşkilatlardan **567** müraciət daxil olub.
Məlumat üçün bildiririk ki, vətəndaşlar qəbula yazılmaq üçün 146-8 Çağrı Mərkəzinə zəng edərək qeydiyyatdan keçə bilərlər.








## Vətəndaş məmnuniyyəti:

Vətəndaşlar tərəfindən birbaşa olaraq, həmçinin ETN vasitəsilə Agentliyə yönləndirilən müraciətlər və sosial şəbəkələrdən daxil olan sorğular araşdırılaraq müvafiq qaydada cavablandırılıb.










## İctimaiyyətin nəzərinə




Bəzi media resurslarında, eləcə də bəzi xaricdə təhsil şirkətlərinin müvafiq elanlarında vətəndaşlarımız müxtəlif xarici ölkələrin universitetlərində təhsil almağa təşviq olunur və sonda diplomların TKTA tərəfindən tanınacağı ilə bağlı vədlər, hətta zəmanət də verilir. Bununla bağlı olaraq, xaricdə təhsil şirkətlərinin fəaliyyətinə nəzarət TKTA-nın səlahiyyətləri xaricində olduğunu, həmçinin Agentlik xaricdə təhsil sahəsində, o cümlədən tanınma prosedurları ilə bağlı heç bir şəxslə, şirkətlə və ya universitetlə əməkdaşlıq etmədiyini və bu kimi vasitəçilərin fəaliyyətlərinə görə heç bir məsuliyyət daşımadığı barədə ictimaiyyətə məlumat yayıb.

www.tinyurl.com/mpcd5j47

13 aprel 2025-ci il tarixində Bakıda dünyanın müxtəlif ölkələrinin universitetlərinin təmsil olunduğu Beynəlxalq Təhsil Sərgisi təşkil olunub. Sözügedən sərgidə iştirak edən xaricdə təhsil almaq istəyən vətəndaşlara təhsillərini tamamladıqdan sonra əldə olunacaq kvalifikasiyanın ölkə ərazisində tanınmasında hər hansı bir çətinliklə qarşılaşmamaları üçün zəruri məqamlara diqqət yetirmələri məqsədilə TKTA-nın sosial media hesablarında tövsiyə xarakterli elan paylaşımı edilib.

www.tinyurl.com/mvedzadf

## Ali təhsil müəsissələrində institusional akkreditasiyasının əhəmiyyəti



**FƏRHAD HƏSƏNZADƏ**
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının
Təhsildə keyfiyyət təminatı və monitorinq bölməsinin rəisi,
polis polkovnik-leytenantı

ATM-lərin institusional akkreditasiya prosesi istər hesabatlılığın təmin edilməsi, istərsə də məsuliyyət və keyfiyyət mədəniyyətinin formalaşması baxımından əhəmiyyətə malikdir. Proses özündə akkreditasiyaya cəlb olunan ATM-in missiyasına uyğun fəaliyyətinin standartlara və gözləntilərə hansı dərəcədə uyğunluğunu müəyyən etməyi, kadr hazırlığı və elmi tədqiqat sferasında işlək mexanizmlərin yaradılmasını ehtiva edir.

ATM-lərin institusional akkreditasiya prosesi ETN-in Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları” əsasında həyata keçirilir.

İlk öncə onu vurğulamaq lazımdır ki, ATM-lərin institusional akkreditasiyası ATM-lərdə keyfiyyətli təhsil mühiti yaratmaqla onun rəqabətədavamlılığını təmin edir və nəticədə təhsil müəssisəsinə tələbə qəbulunun artırılması və maliyyə vəsaitinin cəlb edilməsinə yol açır. Bu baxımdan, ATM akkreditasiya prosesində maraqlı olmalı, öz fəaliyyətlərini kənar ekspertizaya təqdim etməkdən çəkinməməli, əksinə bu prosesi “cəza mexanizmi” kimi yox, təkmilləşmə imkanı kimi qəbul etməlidirlər. Prosesin effektivliyi də məhz tərəflər arasında mövcud olacaq sosial kapitalın – qarşılıqlı inam və etimad mühitinin səviyyəsindən birbaşa asılıdır. Prosesin bütün iştirakçıları – istər akkreditasiya komisiyyasının üzvləri, istər ali təhsil müəssisəsinin rəhbərliyi, pedaqoji və inzibati heyəti, istərsə də təhsilalanlar və xarici maraqlı tərəflər mövcud durumu obyektiv şəkildə təqdim etməli və bunun müəssisənin inkişafına, dolayısı ilə cəmiyyətin inkişafına xidmət etdiyini şüurlu şəkildə dərk etməlidirlər.

Digər bir məqam ondan ibarətdir ki, ATM akkreditasiya prosesinə hazırlaşmaq məqsədilə qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görür (Özünütəhlil Hesabatının yazılması və digər sənədlərin hazırlanması). Bu təhsil prosesinin digər iştirakçılarında keyfiyyət və sosial iştirakçılıq mədəniyyətinin, eləcə də məsuliyyət hissinin formalaşmasına təsir göstərir. Fikrimcə, keyfiyyətli təhsil mühitinin formalaşdırılması iştirakçılarda buna uyğun düşüncə və davranış tərzinin (keyfiyyət mədəniyyətinin) formalaşdırılmasından asılıdır. ATM-in hər bir əməkdaşı öz funksional vəzifələrini dərindən dərk etməli və icrası üçün məsuliyyət daşımalıdırlar. Bunun üçün isə tərəflərin prosesdə şüurlu şəkildə iştirakı vacib məqamlardan biridir. Yalnız keyfiyyət mədəniyyəti ilə “silahlanmış” əməkdaşlar və digər maraqlı tərəflər ilə keyfiyyətli təhsil mühitinin formalaşdırılması mümkündür.

Unutmaq lazım deyil ki, hər bir təhsil müəssisəsi özlüyündə bir sistemdir və uğurlu akkreditasiya prosesi bu sistemin bütün elementlərinin – yəni struktur hissələrinin funksionallığının təmin edilməsindən keçir.

# Ali təhsil müəsissələrində proqram akkreditasiyasının əhəmiyyəti



**LEYLA ƏLİYEVA**
Qarabağ Universiteti,
Tədris şöbəsinin müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru

Müasir dövrdə ali təhsildə keyfiyyəti və davamlı inkişafın təmin olunması dövlət və cəmiyyət üçün prioritetə çevrilmişdir. Bu baxımdan universitetlərdə həyata keçirilən proqram akkreditasiyası ali təhsil proqramlarının effektivliyinin və keyfiyyət standartlarına uyğunluğunun qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Tədris proqramlarının akkreditasiyası qiymətləndirilməsi müvafiq meyarlar əsasında müstəqil ekspertlər tərəfindən aparılır.

Proqram akkreditasiyası ATM-lərdə daxili keyfiyyət təminatı sisteminin formalaşması və gücləndirilməsi üçün mühüm alətdir. Universitetlər özlərini yalnız qiymətləndirmə aparılan deyil, həm də davamlı inkişaf edən və öyrənən təşkilat kimi görürlər. Akkreditasiya onların strategiya və fəaliyyətlərini daha məqsədyönlü, sistemli və ölçüləbilən formada qurmağa kömək edir.

Proqram akkreditasiyası tədris proqramlarının strukturunu, məqsəd və nəticələrini, məzmununu, tədris və öyrənmə metodlarını, qiymətləndirmə mexanizmlərini və akademik heyətin peşəkarlığını dəyərləndirir. Bu, universitetləri proqramlarını daha sistemli, məqsədyönlü və tələbəyönümlü şəkildə qurmağa sövq edir. Akkreditasiya prosesi nəticəsində universitetlər proqramlarını təkmilləşdirir, zəif sahələrdə düzəlişlər aparır, yeni tədris metodları tətbiq edir və ümumi tədris keyfiyyətini artırırlar.

Proqram akkreditasiyası təhsil proqramları ilə əmək bazarının tələbləri arasında əlaqə yaradır. Akkreditasiya prosesi zamanı işəgötürənlərin, məzunların və digər maraqlı tərəflərin rəyləri nəzərə alınır. Bu, təhsil proqramlarının əmək bazarına uyğun şəkildə yenilənməsini təmin edir. Beləliklə, işəgötürənlər akkreditasiya olunmuş proqramlardan məzun olan kadrların peşəkar bilik və bacarıqlara malik olduqlarına daha çox güvənirlər.

Ümumilikdə, proqram akkreditasiyası ali təhsildə keyfiyyətin artırılması, şəffaflıq və hesabatlılığın təmin olunması, tələbələrin hüquqlarının müdafiəsi və universitetlərin beynəlxalq rəqabətə hazır olması baxımından mühüm əhəmiyyətə malikdir. Bu proses ali təhsil sistemində davamlı inkişaf və təhsilalanların daha yaxşı gələcək ilə təmin edilməsinə xidmət edir. Hər bir ATM üçün proqram akkreditasiyası yalnız tələblərin yerinə yetirilməsi deyil, həm də təhsilin mahiyyətini dərinləşdirmək, yeniləmək və gələcəyə hazırlamaq üçün bir fürsət olmalıdır.

## Ali təhsil müəsissələrində proqram akkreditasiyasının əhəmiyyəti



**NİZAMİ ZEYNALOV**
Mingəçevir Dövlət Universitetinin Təhsil fakültəsinin dekanı,
Tarix üzrə fəlsəfə doktoru, dosent

Son illərdə respublikamızda ATM-in yeni meyarlar əsasında akkreditasiya olunması ölkə miqyasında ali təhsildə keyfiyyətin yüksəldilməsi istiqamətində mühüm addım kimi dəyərləndirilməlidir. Bu baxımdan ölkəmizin ali təhsil məkanında özünəməxsus yer tutan Mingəçevir Dövlət Universitetində (MDU) 2024/2025-ci tədris iliində həm proqram, həm də institusional akkreditasiya qiymətləndirilməsinin həyata keçirilməsi böyük əhəmiyyət daşıyır.

TKTA-nın təsis etdiyi aidiyyəti Akkreditasiya Komissiyası tərəfindən 30-31 oktyabr 2024-cü il tarixində MDU-nun 050107 – “İbtidai sinif müəllimliyi”, 12-14 may 2025-ci il tarixində isə 050112 – Məktəbəqədər təhsil proqramlarının akkreditasiyası ilə əlaqədar sahə baxışları həyata keçirilib. Qeyd etmək lazımdır ki, hər iki proqram akkreditasiyası prosesi müvafiq Akkreditasiya Komissiyalarının yüksək peşəkarlığı ilə kifayət qədər şəffaf və obyektiv şəraitdə həyata keçirilmiş, mövcud meyarların tələblərinə uyğun əsaslandırılaraq dəyərləndirilmişdir. Ayrıca vurğulamaq lazımdır ki, proqram akkreditasiyaları MDU-nun ümumi təhsil mühitinə, tədris prosesinin təşkilinə və bütövlükdə infrastrukturun təkmilləşdirilməsinə, habelə hər iki proqram üzrə tələbəyönümlü tədris və təlim prosesinin yenidən qurulmasına olduqca müsbət təsir göstərmişdir.

Qeyd edək ki, “İbtidai sinif müəllimliyi” ixtisası üzrə proqram akreditasiyası həmçinin Akkreditasiya Komissiyasının tam obyektiv təhlilinin nəticələrindən irəli gələn dəyərli tövsiyələri həm cari proqram, həm də digər təhsil proqramlarının perspektiv inkişafı üçün, habelə bu istiqamətdə işlərin yeni əsaslarla qurulması üzrə yol xəritəsi rolunu oynayıb. “İbtidai sinif müəllimliyi” təhsil proqramının akkreditasiyasının tövsiyələrindən irəli gələrək MDU-nun Təhsil fakültəsində, xüsusilə əmək bazarı ilə əlaqələr intensivləşdirilmiş, təhsil proqramlarının monitorinqi üzrə əmək bazarı tələblərinin nəzərə alınmasına diqqət artırılmış, məzunlarla əks-əlaqə və onların əmək bazarında fəaliyyətlərinin izlənilməsi sistemi təkmilləşdirilmişdir. “İbtidai sinif müəllimliyi” təhsil proqramının akkreditasiya təcrübəsi “Məktəbəqədər təhsil” proqramı üzrə həyata keçirilən akkreditasiya prosesinə hazırlıq dövründə nəzərə alınmış, xüsusilə Özünütəhlil Hesabatının hazırlanması ilə bağlı yaradılan Təşkilat Komitəsinin tərkibi formalaşdırılarkən əmək bazarı nümayəndələri və məzunların prosesə daha geniş cəlb edilməsi təmin edilmişdir. Beləliklə, “Məktəbəqədər təhsil” proqramı akkreditasiyasının başa çatmasında “İbtidai sinif müəllimliyi” təhsil proqramının akkreditasiya təcrübəsi müstəsna rol oynamışdır.

## Peşə təhsili müəssisələri və akkreditasiya: ekspert hazırlığı prosesi



**YADULLAH BABAYEV**

Azərbaycan Texniki Universiteti,
Xüsusi texnika və texnologiya fakültəsinin dekanı,
Texnika üzrə fəlsəfə doktoru, dosent

Son on illikdə Azərbaycanda peşə təhsilinə dövlət dəstəyi əhəmiyyətli dərəcədə artmışdır. Sənayenin ehtiyacına uyğun ixtisaslı kadr hazırlığına olan tələbat peşə təhsil mərkəzinin (PTM) rolunun artmasını şərtləndirir. Bu səbəbdən, peşə təhsilinin səviyyəsi və keyfiyyəti daim yüksəldilməlidir. Son dövrlərdə ölkədə bir çox PTM-də infrastrukturun modernləşdirilməsi istiqamətində ciddi addımlar atılmışdır. Lakin infrastrukturun yenilənməsi təkbaşına keyfiyyətin təmin edilməsi demək deyil. Keyfiyyətin yüksəldilməsi üçün tədris prosesində və idarəetmə sistemində səmərəli nəzarət və dəyərləndirmə mexanizmləri tətbiq olunmalıdır.

Bu baxımdan akkreditasiya qiymətləndirilməsi PTM-lərdə daxili keyfiyyət təminatının gücləndirilməsi üçün əsas alətlərdən biri kimi qəbul edilə bilər. Hər bir PTM öz Strateji İnkişaf Planını hazırlaya və daxili keyfiyyət təminatı sistemini qura bilər, lakin bu sistemlərin effektiv işləyib-işləmədiyini kənar qiymətləndirilmə olmadan tam anlamaq mümkün deyil. İnstitusional akkreditasiya prosesi PTM-lərin təhsil və idarəetmə proseslərinin hansı səviyyədə olduğunu qiymətləndirir və inkişaf üçün konkret tövsiyələr verə bilir.

Keyfiyyət təminatı yalnız tədris prosesi ilə məhdudlaşmamalıdır. PTM-lərdə inzibati və idarəetmə fəaliyyətləri də tədrisin keyfiyyətini dəstəkləməlidir.

Akkreditasiya qiymətləndirilməsi məhz bu amilləri nəzərə alaraq müəssisənin kadr hazırlığı prosesində hansı boşluqların olduğunu aşkar edir və sistemin yaxşılaşdırılması üçün müvafiq istiqamətləri müəyyənləşdirir. Bu qiymətləndirilmə nəticəsində peşə təhsil müəssisələri öz zəif və güclü tərəflərini müəyyən edir, təlim prosesini və ümumi idarəetmə mexanizmini daha effektiv şəkildə tənzimləyə bilir.

Peşə təhsilinin əsas məqsədi əmək bazarına uyğun ixtisaslı kadrların hazırlanmasıdır və bu məqsədə nail olmaq üçün daxili keyfiyyət təminatı sistemlərinin effektivliyinin artırılması akkreditasiya prosesi vasitəsilə dəstəklənməlidir. Akkreditasiya qiymətləndirilməsi təhsil müəssisələrinin strategiyalarının daha məqsədyönlü olmasına və uzunmüddətli inkişaf planlarının sistemli şəkildə qurulmasına kömək edir. Beləliklə, akkreditasiya prosesi peşə təhsili müəssisələrinin öz fəaliyyətlərini obyektiv şəkildə təhlil etməsinə və davamlı inkişaf strategiyaları formalaşdırmasına imkan yaradır.

TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz